# Rusiya sülhməramlılarına aid avtomobillər aksiya ərazisindən sərbəst keçirlər

**Laçın-Xankəndi yolunda təşkil olunan aksiyanın 118-ci günündə də Rusiya sülhməramlılarına məxsus avtomobillər aksiya ərazisindən maneəsiz keçirlər.**



AZƏRTAC xəbər verir ki, sülhməramlılara məxsus 6 yük avtomobilinin Laçından Xankəndi istiqamətinə sərbəst hərəkəti təmin edilib.

Bu, bir daha onu göstərir ki, ərazidə hərəkət sərbəstdir.

Qeyd edək ki, Ermənistan mətbuatında yayılan və etirazçıların guya Laçın-Xankəndi yolunu bağladıqları və təminat avtomobillərini buraxmadıqları ilə bağlı xəbərlər qarşı tərəfin növbəti dezinformasiyasıdır.

Azərbaycan.- 2023.- 8 aprel.- S.9.